Ədəbiyyat qəzeti 5 oktyabr 2024-cu il 15 №38

# Azərbaycan Yazıçılar Birliyində görüş



Dünən Azərbaycan Yazıçılar Birliyində Rusiya Nümayəndə Heyəti ilə görüş keçirilib. Görüşdə Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin birinci katibi Pavel Kuznetsov, rus yazıçısı, deputat Sergey Şarqunov, Rusiya Yazıçlar Birlikləri Assosiasiyasının sədri, Bakıdakı Rus Evi rəhbərinin müavini Dmitri Yeqorov, Bakıdakı Rus Evi ədəbi layihəsinin rəhbəri, AYB-nin üzvü Lalə Həsənova iştirak ediblər. AYB-nin Natəvan klubunda keçirilən tədbirdə "Yazıçılar niyə birləşir?", "Rusiya Yazıçılar və Naşirlər Birlikləri Assosiasiyası nədir və nə edir?" mövzularında müzakirələr aparılıb.

AYB-nin sədri, Xalq yazıçısı Anarın və Birliyin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayevin Sergey Şarqunovla səmimi söhbətində ədəbiyyatın inkişafı, müxtəlif ölkələrin yazıçılar birlikləri arasında təcrübə mübadiləsinin zərurəti gündəmə gətirilmişdir.